# Azərbaycan özünün tərəfdaşlıq prioritetlərinə sadiqdir



**_Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtına gələn Azərbaycan Prezidenti cənab İlham Əliyevin Avropada yaşayan çoxsaylı vətənpərvər soydaşlarımız tərəfindən coşğu ilə qarşılanıb. Əllərində Azərbaycan, ingilis, fransız və digər dillərdə müxtəlif plakatlar tutmuş azərbaycanlılar Prezidentə dəstək şüarları səsləndirmələri dünya mediasında öz əksini tapıb. Bu, böyük nüfuz və inam göstəricisidir._**

Bu qarşılanma hələ 2004-cü il mayın 18-də Brüsseldə cənab İlham Əliyevin iştirakı ilə "Dədə Qorqud" abidəsinin açılmasını yada saldı. O zaman Belçika Azərbaycan evinin təmsilçiləri dövlətimizin başçısını eyni hərarətlə salamlamışdılar. Abidənin yanındakı lövhədə bir neçə dildə "Dədə Qorqud Azərbaycan xalqının əcdadı olan qədim oğuzların baş bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu simasıdır. Haqq-ədalət, barışıq carçısı olub" – fikirləri həkk edilmişdir. Bu gün eyni missiyanın daşıyıcısı olan cənab İlham Əliyev dünyanın tanınmış liderlərindəndir. Sammitə gələn Azərbaycan Prezidentinin qarşılanmasına sanki qədim Oğuz elinin Bayat boyundan qopmuş ər Qorqud Ata da kənardan qürurla tamaşa edirdi...

Xatırlayırıq ki, hələ 2004-cü ildə Prezident İlham Əliyev Belçikaya ilk dəfə səfəri zamanı Avropa strukturlarına inteqrasiyanı Azərbaycanın strateji yolu kimi təqdim etmişdi. Sonrakı səfərlər, qlobal tədbirlər, Bakı görüşləri həmin strateji xəttin dəyişməz olduğunu göstərmişdir. 2006-cı ildən başlayaraq NATO-ya üzv dövlətlər zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstək ifadə etsələr də, təəssüf ki, bunun əməli nəticəsi olmamış və uzun müddət torpaqlarımız erməni işğalı altında qalmışdır. Tərəfdaşlıq sammitləri prioritetlərin icrası mexanizmlərindən xali olmuşdur. Sonda Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasına öz gücünə nail olmuşdur. Dədə Qorqud öygülərinə önəm verən, ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən cənab İlham Əliyev ərazi bütövlüyümüzü təmin etməklə Azərbaycanı dünyaya qalib dövlət kimi tanıda bilmişdir. Ümidvarıq ki, budəfəki görüşlər konkret əməli nəticələr verəcək.

**(ardı 5-ci səhifədə)**



# Azərbaycan özünün tərəfdaşlıq prioritetlərinə sadiqdir

(əvvəli 1-ci səhifədə)

Brüssel səfərində bir məqsəd də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirmək idi. Məlum olduğu kimi, Qarabağ savaşında acınacaqlı məğlubiyyətə uğrayan Ermənistan kapitulyasiya aktına qol çəksə də, üçtərəfli bəyanatların heç də bütün müddəalarına əməl etmir. Ölkədəki revanşistlər mənasız hay-küy salır, hay tarixçiləri əsl həqiqəti təhrif edərək, Qarabağın qədim erməni torpağı olduğu iddiaları ilə öz millətlərinin başını xarab edirlər.

Bu məqamda yenə də “Kitabi-Dədə Qorqud”u xatırlasaq, yerinə düşər. Əsərin mətnində Azərbaycan şəhərlərinin – Dərbəndin, Bərdənin, Gəncənin, Naxçıvandakı Əlincə qalasının adları var. Hətta “Gürcüstan”, “Abxaziya” sözlərinə rast gəlinir. Amma heç bir yerdə “Ermənistan”, “erməni”, “hay” sözləri yoxdur. Bu da onu sübut edir ki, 1300 il əvvəl də burada ermənilər olmamışlar. Rus deputatı siyasi qalmaqallar ustası Kostantin Zatulin isə bugünlərdə utanmadan belə bir fikir səsləndirmişdi: “İlk dəfə eşidirəm ki, 20-ci əsrdə yaranmış Azərbaycanın 3000 illik Ermənistan ərazisində tarixi torpaqları var”. Əlbəttə, bu, olsa-olsa, xəstə təxəyyülün məhsuludur. Görünür, “Yalanlar kralı”nın heç “Dədə Qorqud”dan da xəbəri yoxdur. Halbuki ilkin tarixi və mədəni mənbə olan “Dədə Qorqud” qədim germanların “Nibelunqlar nəğməsi”, skandinavların saqaları, ingilislərin “Beovulf” dastanı, yunanların əsatirləri qədər, bəlkə də daha çox dəyərləndirilən tutalğadır.

Qayıdaq Brüssel sammitinə. Prezident İlham Əliyev orada NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə, Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberqlə görüşüb və onunla birgə mətbuat konfransı keçirib. Ermənistanın baş naziri Nikol Paşinyanla üçtərəfli, Moldova Respublikasının Prezidenti xanım Maya Sandu və Ukrayna Prezidenti Volodimir Zelenski ilə ikitərəfli təmaslar olub. Dövlətimizin başçısı İspaniyanın “El Pais” qəzetinə müsahibə verib. Şərq Tərəfdaşlığının VI Sammitində parlaq çıxış edib. Daha sonra Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib.

NATO-nun Şimali Atlantika Şurasının iclasında Azərbaycan – NATO əməkdaşlığı və praktiki müstəvidə əlaqələrin genişləndirilməsi, alyansın Əfqanıstanda keçirilən “Qətiyyətli dəstək” missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma, analiz prosesi və digər proqramlar barədə faydalı fikir mübadiləsi aparılıb. Paşinyanla üçtərəfli görüşdə sərhədlərin delimitasiyası və demarkasiyası, mina xəritələrinin verilməsi, Zəngəzur dəhlizinin açılması, sülh sazişinin imzalanması zərurəti və prinsipial əhəmiyyətli digər məsələlər müzakirə olunub. Həmin görüşdən sonra Aİ Şurasının prezidenti Şarl Mişelin yaydığı bəyanatda Azərbaycanın haqlı mövqeyi bir daha təsdiqlənib və bildirilib ki, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər sözsüz yerinə yetirilməlidir. Bəyanatda Aİ Şurasının Prezidenti tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasına, Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib.

Brüsseldə Paşinyanla üçtərəfli görüşün yekun bəyanatında başlıca məqamlar artıq tarixə gömülmüş qondarma DQR-in adının çəkilməməsi, ATƏT-in Minsk qrupunun yada salınmamasıdır. Əsas vurğunun postmüharibə dövrü üzərində qurulması isə hər kəsin günün gerçəkləri ilə barışması deməkdir. Gizli deyil ki, münaqişənin həllində iştirak etməyən həmsədr ölkələr – ABŞ və Fransa Minsk qrupu formatının dirilməsi üzərindən bölgəyə qayıtmaq istəyirlər. Bu isə Bakının, eləcə də Bakını dəstəkləyən Ankaranın və bölgəni Qərblə paylaşmaq istəməyən Moskvanın marağına ziddir. Elə noyabrın 26-da baş tutmuş Soçi görüşü də bu aspektdən mənalandırılır.

Cənab İlham Əliyevin İspaniyanın “El Pais” qəzetinə müsahibəsi də güclü əks-səda doğurub. Siyasi analitiklərin hərtərəfli şərhlərində Azərbaycan Prezidentinin suallara dolğun və arqumentli cavabları, konstruktiv mövqeyi yüksək dəyərləndirilib. Dövlət başçımızın bu fikirləri xüsusilə diqqət çəkib: “Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular da bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik... Mən dəfələrlə açıq bəyanat vermişəm ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır”.

Müsahibənin sonunda cənab İlham Əliyev bildirib ki, biz, 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbürlü tövrlərindən əziyyət çəkirdik. Onlar bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq bizim torpaqlarda oturmuşdular, ərazilərimizi dağıdır və iddia edirdilər ki, Qarabağ onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa bizim haqq işimizi dəstəkləyən qətnamələr qəbul etsələr də, ermənilər işğal etdikləri ərazilərdən çəkilmir, arxayıncasına bəyan edirdilər ki, həmişəlik orada oturacaqlar. Bu isə uzun çəkə bilməzdi və beləliklə, motivasiya, ruh yüksəkliyi və cəsarət Azərbaycanın qələbəsinin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi.

Prezident İlham Əliyev sammitdəki çıxışında uğurla inkişaf edən Azərbaycan–Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək tərəflər arasında üç il əvvəl paraflanmış “Tərəfdaşlıq prioritetləri” sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti, yeni, quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğulayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib.

Dövlətimizin başçısı regional məsələləri daim gündəliyində saxladığına, bu proseslərə verdiyi töhfəyə və dəstəyə görə Avropa İttifaqı Şurasının prezidentinə təşəkkürünü bildirib. Bu xüsusda Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv keçdiyini xüsusi qeyd edib. Prezidentin bildirdiyinə görə, Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqlar çox praktiki olub və təfsilatlı xarakter daşıyıb. Burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin dəqiq müəyyənləşməsi, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlər müzakirə olunub. Nəticə etibarilə təmaslar səmərəli və praqmatik keçib.

Kommunikasiyaların açılması ilə bağlı dövlət başçımız açıq şəkildə deyib ki, əgər Ermənistan Zəngəzur dəhlizində gömrük postu qurmaq istəsə, Laçın yolunda da eyni addım atılacaq. Azərbaycan bu işdə də prinsipial mövqe nümayiş etdirir. Bu qətiyyət həm Ermənistana, həm də bu ölkədən öz məqsədləri və maraqları üçün geosiyasi alət kimi istifadə edənlərə mesajdır. Nikol Paşinyana aydın şəkildə başa salındı və ya tapşırıq verildi ki, vəziyyətə utopikcəsinə yanaşmasın və Zəngəzurda gömrük postu qurmaq xəyallarından əl çəksin. Artıq dərk etməyin vaxtıdır ki, Ermənistan geosiyasi şahmat taxtasında adi bir piyada statusundadır, amma yanlış olaraq özünü ağır fiqur sayır.

Prezident İlham Əliyevin istər sammitdəki çıxışında, istərsə də qəzetə müsahibəsində və bəyanatlarında münaqişəni araşdıran analitiklər və ekspertlər üçün bir çox prinsipial məqamlar var və bunlar hərtərəfli şəkildə təhlil edilməli, əsl həqiqəti əks etdirən nəticələr əldə olunmalıdır. Onlara bir mühüm detalı xatırlatmaq yerinə düşər ki, bir neçə gün öncə Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanın qələbə qazanması dövlət başçımızın Brüssel görüşünə böyük üstünlüklə getməsini təmin etdi. Ermənistanın, demək olar ki, heç bir məsələdə və iddiada haqlı olmadığını bir daha nümayiş etdirdi.

Bu da vacib detaldır ki, Brüssel səfərindən əvvəl, dekabrın 13-də Prezident İlham Əliyevin Bakıda “Qarabağ” futbol klubunun üzvlərini qəbul etməsi də müəyyən rəmzi səciyyə daşıyırdı. Obrazlı şəkildə desək, hər birimiz üçün şərəf timsalı olan “Qarabağ” adını daşıyan və layiqincə doğruldan, Avrokuboklarda uğurla irəliləyən, eyni zamanda, daim hakimlərin haqsızlıqları ilə üzləşən bu komanda görüş zamanı bir növ Azərbaycanın kiçik modeli kimi təqdim olundu. İkili münasibətlərə, təzyiqlərə baxmayaraq, “Qarabağ” mətinliyini itirməyib və UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksəlib. Dövlət başçısı bunu layiqincə dəyərləndirib: “Qarabağ” futbol klubunun adı sizin üzərinizə əlavə məsuliyyət qoyur. Siz həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra Qarabağ adını uca tutursunuz, bu adı bütün Avropa futbol məkanında təbliğ edirsiniz. Bir daha demək istəyirəm, nəzərə alsaq ki, uzun illər torpaqlarımız, o cümlədən Ağdam şəhəri işğal altında idi, hər qələbə, “Qarabağ” futbol klubunun hər tarixi addımı hər bir Azərbaycan vətəndaşını sevindirirdi. Əminəm ki, növbəti mərhələdə də siz komandaya xas olan əzmkarlıq və vətənpərvərlik göstərərək xalqımızı sevindirəcəksiniz”. Əlbəttə, Brüssel səfəri öncəsi belə bir əhval-ruhiyyənin yaradılması istər idman sahəsində, istər siyasi müstəvidə, istərsə də, digər aspektlərdə ədalət prinsipinin dəyişməz qalması zərurətini özünəməxsus tərzdə önə çəkməkdir. Bu, eyni zamanda, İlham Əliyevin dərin diplomatik zəkası, düzgün siyasi manevrləri və sarsılmaz milli mövqeyi anlamına gəlir.

Nəhayət, onu da bir daha vurğulayaq ki, Qarabağın savaş səhifəsi çevrildikdən sonra bu əzəli-əbədi diyarımızın ömür-gün sevdası təzə sətirdən, özü də böyük əzmlə yazılmaqdadır.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**